Qəniyev E.Qorxunu qorxudub, ölümü öldürən qəhrəman // Azərbaycan : qəzet. - 2022. - 4 iyun. - № 116. - S. 7.

Onu ilk dəfə Şuşa işğaldan azad olunan gün xəstəxana pəncərəsindən sol əli ilə insanlara hərbçi salamı verib Azərbaycan əsgərinin yaddaşlarda qalmış məğrur obrazını yaratdığı vaxt tanıdıq. O, "of" demədən canını verib torpağımızı azad edənlərdən, bizə qələbə sevincini yaşadanlardan, yurdu Vətən edənlərdən, vətənin başını ucaldanlardan biri Sahil Həsənli idi. O gün o üzdəki qüruru, sevinci, onun məğrur duruşunu, baxışını heç kim sözlə ifadə edib yaddaşlara yaza bilməzdi. Pəncərədən sol əli ilə salam verib insanları qucaqlayıb bağrına basmaq istəyini heç bir rəssam öz fırçası ilə çəkə bilməzdi. Qucaqlamaq üçün insanda gərək iki qol ola. Sahilin isə bir qolu var...

Haqqında söhbət açdığımız qəhrəman Sahil Həsənli 13 fevral 1991-ci ildə Sumqayıt şəhərində anadan olub. Vətən müharibəsi başlayanda o, çağırış gözləmədən könüllü olaraq vətənin müdafiəsinə qalxıb. Sinəsini düşmən gülləsinə qalxan edən Sahilin döyüş yolu 1 oktyabr 2020-ci ildə Füzuli rayonundan başlayıb. Füzulidən Qubadlıyadək uzun və şərəfli döyüş yolu keçən Sahil Həsənli oktyabrın 20-də Qubadlının azad olunması uğrunda gedən qanlı döyüşlərdə ağır yaralanıb.

Sumqayıt şəhər H.Tağıyev qəsəbəsində yaşayan müharibə veteranı Sahil Həsənli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Sumqayıt şəhərindəki Reabilitasiya Mərkəzində operator vəzifəsinə təyin olunub.

Sahillə onun iş yerində görüşdük. Azərbaycan əsgərinin qəhrəmanlıq obrazının bütün cizgilərini onun üzündən görmək olur. Üstündən illər keçsə də, nə bir peşmançılıq, nə də bir təəssüf hissi vardı. Onda qürur gördük, sevgi gördük, sevinc gördük. Vətənə olan ilahi bir bağlılıq hiss etdik Sahildə.

O, döyüşlərdə baş verənlərdən danışdı: "Oktyabrın 20-i idi. Qubadlı uğrunda qanlı döyüşlər gedirdi. Düşmən qüvvələri illərlə möhkəmləndikləri mövqelərdən ara vermədən iriçaplı silahlardan atəş açırdılar. Göydən güllə dolu kimi yağırdı. Qorxu hissi yox idi gözümüzdə. Bircə məqsədimiz var idi. Nəyin bahasına olursa-olsun, irəliləməli, qarşıya qoyulan əmri yerinə yetirməli idik. Kimsə öz canını düşünmürdü. Bizi qayğılandıran 30 il işğalda qalmış vətənin taleyi idi. Qəfildən yanımda güclü partlayış oldu, huşumu itirdim. Bir də Füzulidə, xəstəxanada gözümü açdım. Qolumu amputasiya etmişdilər. Buna baxmayaraq, döyüşmək istəyirdim. Həkimlərdən xahiş edirdim, hətta yalvarırdım ki, döyüşə getməyimə icazə versinlər. Bilirdim ki, bir qolla döyüşmək çətin olacaq. Amma düşünürdüm ki, üstümə qumbaralar, partlayıcı bağlayıb canlı bomba olaram..."

"Yenə də müharibə olsa, gedərəm"

Bu sözlərin ardınca dedi: "Bu vətənin yolunda can verməyə, qan tökməyə dəyər. Şükür ki, heç kimin qanı yerdə qalmadı. Heç nədən peşmançılığım yoxdur. Lazım olarsa, canımı Vətənimin yolunda qurban verməyə hazıram. Qulağımın dibindən güllə keçib, başımın üstündən qəlpə uçub, özüm üçün yox, vətənim üçün dua etmişəm. Döyüşə-döyüşə içimdə, dilimdə, qəlbimdə dua etmişəm ki, qələbə bizim olsun".

Döyüşçü Sahil Həsənlinin göstərdiyi qəhrəmanlıq yüksək qiymətləndirilib. Ali Baş Komandan İlham Əliyev tərəfindən o, "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib. Qazimiz dövlətimizin qayğısını hər an hiss etdiyini məmnunluqla ifadə edir. "Biz müharibəyə yalnız torpaq uğrunda döyüşmək üçün getmişdik. Başqa heç bir niyyətimiz olmayıb. Bu gün dövlətin qayğısı ilə əhatə olunmuşuq. Yüksək texnologiyalı protez, ev, avtomobil, ən başlıcası isə, hər an xalqımızın sevgisini hiss edirik", - deyir Sahil.

İndi şəhidlərimizin, qazilərimizin, vətəni canları ilə qoruyan igidlərimizin geri aldıqları o torpaqlarda sürətlə abadlıq-quruculuq işləri gedir. Həyat yenidən canlanır. Bu yurdun sakinləri də, sinəsi yaralı dağ da, daş da bu torpağı yenidən Vətən edən şəhidlərimizə, qazilərimizə, igid vətənpərvər oğullarına alqışlar deyir. O alqışı daha çox haqq edənlərdən biri də Sahil Həsənlidir. Alqış hünərinə, ey vətən oğlu!